№ 15-16 (799) 30 avqust 2024-cü il Qəzet 1991-ci ildən nəşr olunur www.health.gov.az

# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi



«Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunda dəyişiklik edildi

2



«Azərbaycan Dəmir Yolları»nın tibb müəssisələri bəzi dövlət orqanlarının tabeliyinə verilib

2




Səhiyyə Nazirliyi: Azərbaycanda meymunçiçəyinə şübhəli hallar qeydə alınmayıb

4

## Azərbaycan ilə Rusiya arasında imzalanmış sənədlər mübadilə edilib



«Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko mübadilə ediblər.

3



## Səhiyyə Nazirliyində Belarus nümayəndə heyəti ilə görüş keçirilib

Azərbaycan Səhiyyə Nazirliyində Belarusun səhiyyə nazirinin müavini Aleksandr Starovoytovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov da iştirak edib.

Səh. 4

## Sertifikasiya ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında əmr imzalanıb



Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında» əmr imzalayıb.

Səh. 5

## Səhiyyə Nazirliyinin «Çağrı Mərkəzi» müharibə iştirakçıları və şəhid ailələrinin müraciətlərini cavablandırır




4

### Aforizm

*Sənin düşmənlərin var? Lap yaxşı. Deməli, sən həyatında nə vaxtsa nəyisə müdafiə etmisən.*

*U.Çerçill*



# «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunda dəyişiklik edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq qəbul etdiyi ««Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə» Qanunu imzalayıb.**

Sənədə əsasən qərara alınıb ki, «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Qanunun 32.2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

«32.2. Qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının məhv edilməsini yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilən komissiyalar bu Qanunun 7.1.4-cü maddəsində göstərilən və digər normativ hüquqi aktlara uyğun olaraq həyata keçirir. Komissiyalar məhkəmə və prokurorluq orqanlarının, həmçinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndələrindən ibarət tərkibdə təşkil edilir.».

Dövlət başçısı həmçinin yeni qəbul olunmuş Qanunun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman da verib.

Qanunun qüvvəyə minməsi ilə əlaqədar onun tətbiqini təmin etmək məqsədilə qərara alınıb ki, Qanunun 32.2-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirəcək.

Eyni zamanda, müəyyən olunub ki, həmin maddənin birinci cümləsində «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur.

Fərmanla təsbit olunub ki, qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi aşağıdakı komissiyalar tərəfindən həyata keçiriləcək:

1. Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyası tərəfindən formalaşdırılan külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiya;
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən formalaşdırılan Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyası;
3. yerli icra hakimiyyəti orqanları tərəfindən formalaşdırılan az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyaları;

Fərmanla müəyyən olunub ki, həmin Qanunun 32.2-ci maddəsinin ikinci cümləsində «orqan (qurum)» dedikdə aşağıdakılar nəzərdə tutulur:

1. külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Komissiyaya münasibətdə Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu;
2. Naxçıvan Muxtar Respublikasının ərazisində külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə Naxçıvan Muxtar Respublikasının Komissiyasına münasibətdə bu Fərmanın 1.4.1-ci yarımbəndində göstərilən orqanların (qurumların) fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən müvafiq orqanlar (qurumlar) və struktur qurumlar;
3. az və xeyli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə rayon (şəhər) komissiyalarına münasibətdə Daxili İşlər Nazirliyinin, Ədliyyə Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin, habelə bu orqanların fəaliyyət istiqamətləri üzrə səlahiyyətləri Naxçıvan Muxtar Respublikasının ərazisində həyata keçirən orqanların (struktur qurumların) rayonlarda (şəhərlərdə) fəaliyyət göstərən müvafiq struktur bölmələri, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının Tibb Müəssisələrinin İdarəetmə Birliyinin) müəyyən etdiyi tabeliyindəki müvafiq tibb müəssisəsi.

Fərmanla Nazirlər Kabinetinə həvalə olunub ki, həmin Qanundan irəli gələn məsələləri həll etsin.

Fərmana əsasən, «Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası haqqında Əsasnamə»də və «Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında» Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 22 may tarixli 578 nömrəli Fərmanında müvafiq dəyişikliklər edilib.




# «Azərbaycan Dəmir Yolları»nın tibb müəssisələri bəzi dövlət orqanlarının tabeliyinə verilib

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin (QSC) tibb müəssisələri aidiyyəti dövlət orqanlarının tabeliyinə və sərəncamına verilib.**



Baş nazir Əli Əsədovun Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli 586 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında dövlət əmlakının idarə edilməsinin təkmilləşdirilməsi üzrə Dövlət Proqramı»nın 7.11-ci bəndinə əsaslanaraq imzaladığı Qərara əsasən, «Azərbaycan Dəmir Yolları» QSC-nin Həkim-Sanitar Xidmətinin Yol Gigiyena və Epidemiologiya Mərkəzi və Yol Sanitar-Karantin Müfəttişliyi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyinə verilib.

Sənədin 2-ci bəndi ilə həmin Xidmətin tibb müəssisələri, o cümlədən Bakı Dəmir Yolu Xəstəxanası, Gəncə Dəmir Yolu Xəstəxanası, Ələt Dəmir Yolu Xəstəxanası, İmişli Dəmir Yolu Xəstəxanası, 1 saylı Bakı Dəmir Yolu Poliklinikası, 2 saylı Bakı Dəmir Yolu Poliklinikası, Hacıqabul Dəmir Yolu Ambulatoriyası, Xaçmaz Dəmir Yolu Ambulatoriyası Məhdud Məsuliyyətli Cəmiyyətləri Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin tabeliyinə keçib.

Eyni zamanda, Qərarın 3-cü bəndinə əsasən, Bakı şəhəri Xəzər rayonu Mərdəkan qəsəbəsi Əncirli stansiyası ünvanında olan Əncirli Uşaq Dəmir Yolu Xəstəxanasının yerləşdiyi əmlak kompleksi İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin sərəncamına verilib.

Sənədə görə, «Azərbaycan Dəmir Yolları» QSC bu Qərarın 1-ci və 2-ci hissələri icra olunduqdan sonra qurumun Həkim-Sanitar Xidmətinin qanunvericiliyə uyğun olaraq ləğv edilməsi ilə bağlı müvafiq tədbirlər görməli və nəticəsi barədə Nazirlər Kabinetinə məlumat verməlidir.

Səhiyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və «Azərbaycan Dəmir Yolları» QSC bu Qərardan irəli gələn digər məsələləri qanunvericilikdə nəzərdə tutulmuş qaydada həll etməlidir.

Qərarın 1-ci və 2-ci hissələri 2025-ci il yanvarın 1-dən qüvvəyə minəcək.

Maliyyə Nazirliyinə 2025-ci ilin dövlət büdcəsinin və icmal büdcənin layihələri hazırlanarkən bu Qərardan irəli gələn maliyyələşdirmə məsələlərini nəzərə almaq tapşırılıb.

# Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşlarının sağlamlığının mühafizəsi ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşlarına (Xidmətdən pensiyaya çıxmış əməkdaşlar da daxil olmaqla) və onların ailə üzvlərinə tibbi xidmətin göstərilməsi, o cümlədən xəstəliklərin profilaktikası, ilkin tibbi-sanitariya yardımı, təcili və təxirəsalınmaz tibbi yardım, ambulator-poliklinik və stasionar tibbi yardım, onların tibbi reabilitasiyası və sağlamlaşdırılmasının təmin edilməsi «Hərbi qulluqçuların statusu haqqında» Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş «Hərbi xidmətkeçmə haqqında Əsasnamə»nin tələbləri nəzərə alınmaqla, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilsin.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, bu Qərarın icrası ilə əlaqədar müvafiq vəsaitin hər il növbəti ilin dövlət büdcəsi layihəsinin tərtibi zamanı Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti ilə razılaşdırılmış təklifləri əsasında Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin saxlanılması xərclərinin tərkibində nəzərdə tutulmasını təmin etsin.

**3.** Bu Qərar 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri,*
*7 avqust 2024-cü il*



# Azərbaycan ilə Rusiya arasında imzalanmış sənədlər mübadilə edilib

**Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə səfəri çərçivəsində Bakıda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında imzalanmış sənədlərin dövlət başçılarının iştirakı ilə mübadiləsi mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin dövlət başçılarının Birgə Bəyanatını qəbul ediblər.

«Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında səhiyyə, tibbi təhsil və tibb elmi sahələrində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko mübadilə ediblər.

Mərasimdə iki ölkə arasında imzalanmış bir sıra digər sənədlər də mübadilə olunub.

# Azərbaycanla Rusiya arasında səhiyyə sahəsində əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub

**Azərbaycanın Səhiyyə Nazirliyində Rusiyanın səhiyyə naziri Mixail Muraşko ilə görüş keçirilib. Görüş Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəmizə dövlət səfəri çərçivəsində baş tutub.**



Nazirliyin mətbuat xidmətindən bildirilib ki, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla inkişaf etdiyini vurğulayıb. İkitərəfli əlaqələrin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmi də qeyd edilib: «Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasındakı dostluq əlaqələri bütün sahələrdə sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir. İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin rektoru Pyotr Qlıboçkoya «Dostluq» ordeni təqdim edilməsi bunun əyani sübutudur».

Ölkələr arasında səhiyyə sahəsində uğurlu əməkdaşlığın mövcudluğunu bildirən T.Musayev rusiyalı həmkarının 2021-ci ildə Bakıya səfərini xatırladıb: «Görüş zamanı ölkələrimiz arasında «Səhiyyə və tibb elmi sahəsində yenilənmiş əməkdaşlıq Sazişi» imzalanıb. Bu sənəd səhiyyənin inkişafı sahəsində ikitərəfli əlaqələrin möhkəmləndirilməsində mühüm rol oynayır və tibb elminin inkişafına da öz töhfəsini verir».

Səmimi qəbula görə minnətdarlığını bildirən Rusiyanın səhiyyə naziri ölkələrimiz arasında uğurlu əməkdaşlığın olduğunu diqqətə çatdırıb. Rusiya ilə Azərbaycan arasında səhiyyə və tibb təhsili sahəsində səmərəli əməkdaşlığın mövcudluğunu qeyd edən Mixail Muraşko İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının əhəmiyyətini vurğulayaraq deyib: «Beynəlxalq reytinqdə ən yaxşı Rusiya tibb universitetinin ilk filialının məhz Azərbaycanda açılması Prezident İlham Əliyevin dəstəyi və Azərbaycanın Birinci vitse-prezidenti, Seçenov Universitetinin məzunu və fəxri professoru Mehriban Əliyevanın təşəbbüsü sayəsində reallaşıb».

Görüşdə həmçinin əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub.

# Səhiyyə naziri Ukraynanın Azərbaycandakı səfiri ilə görüşüb

**Səhiyyə Nazirliyində Ukraynanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Yuri Qusevlə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev iki ölkə arasında ikitərəfli əlaqələrin bir çox sahələrdə uğurla davam etdiyini diqqətə çatdırıb. Nazir müstəqilliyin bərpasından sonra Azərbaycan ilə Ukrayna arasında dostluq münasibətlərinin formalaşdığını və ikitərəfli əsasda səmərəli əlaqələrin qurulduğunu qeyd edib. Teymur Musayev bildirib ki, Heydər Əliyev Fondunun və Azərbaycan Səhiyyə Nazirliyinin dəstəyi ilə qurumun Sanatoriya-Kurort Bərpa Mərkəzində valideyn himayəsindən məhrum olan 7-17 yaşlı ukraynalı uşaqlar üçün reabilitasiya kursunun təşkili bunun əyani təsdiqidir.

Səhiyyə naziri iki ölkə arasında səhiyyə sahəsində ikitərəfli əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu bildirib. Prezident İlham Əliyevin milli səhiyyənin inkişafına böyük diqqət və önəm verdiyini vurğulayan nazir bu sahənin modernləşdirilməsi, rəqəmsallaşdırılması, insan kapitalının inkişaf etdirilməsi və səhiyyə iqtisadiyyatının gücləndirilməsinin Azərbaycan üçün prioritet məsələlərdən biri olduğunu vurğulayıb.

Nazir həmçinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) bu ilin noyabrında Azərbaycanda keçiriləcəyini diqqətə çatdırıb.

Sonda Azərbaycanın səhiyyə naziri gələcəkdə əməkdaşlığın daha da inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Yuri Qusev Ukraynaya göstərdiyi humanitar yardımlara görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. Dövlətlərarası əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən səfir iki ölkə arasında tarixi və ənənəvi dostluq münasibətlərinin mövcudluğunu xatırladıb. COP29-un əhəmiyyətini qeyd edən Yuri Qusev Azərbaycanın hər zaman mühüm beynəlxalq tədbirləri ən yüksək səviyyədə təşkil etdiyini vurğulayıb.

Diplomat Azərbaycanın Səhiyyə Nazirliyi və nazirliyin tabeliyində olan qurumlarla əməkdaşlığın genişləndirilməsi üçün böyük potensialın olduğunu qeyd edib. Yuri Qusev həmçinin Bakıda ukraynalı uşaqlar üçün reabilitasiya kursunun təşkilinə görə təşəkkürünü bildirib.

Görüşdə tibb təhsili və bu sahədə peşəkar kadrların hazırlanması, habelə tibb universitetləri arasında təcrübə mübadiləsinin aparılmasının vacibliyi vurğulanıb.

# Səhiyyə Nazirliyində Belarus nümayəndə heyəti ilə görüş keçirilib



**Azərbaycan Səhiyyə Nazirliyində Belarusun səhiyyə nazirinin müavini Aleksandr Starovoytovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov da iştirak edib.**

Nazirliyin mətbuat xidmətindən bildirildiyinə görə, qonaqları salamlayan səhiyyə naziri Teymur Musayev son illərdə ölkələrimiz arasında bir çox sahələrdə əlaqələrin genişləndiyini vurğulayıb. Nazir həmçinin səhiyyə sahəsində Azərbaycan - Belarus səmərəli əməkdaşlığının səviyyəsindən məmnunluğunu ifadə edib. Tibbin onkologiya, transplantologiya, kardiologiya, neyrocərrahiyyə və digər sahələrində çalışan mütəxəssis və həkimlərin mütəmadi olaraq təcrübə mübadiləsinin, ixtisasartırma üzrə tədbirlərdə iştirak etmək üçün qarşılıqlı səfərlərin təşkil olunduğunu söyləyən Teymur Musayev deyib: «Sevindirici haldır ki, bu illər ərzində iki ölkənin tibb mütəxəssisləri arasında nəinki möhkəm işgüzar əlaqələr, həmçinin dostluq münasibətləri də təşəkkül tapıb».

Ölkələrimiz arasında əczaçılıq sahəsində uğurlu əməkdaşlığın olduğunu vurğulayan səhiyyə naziri əczaçılıq sənayesinin bütün dünyada innovativ inkişaf baxımından mühüm yer tutduğunu qeyd edib: «Əczaçılıq sənayesi gələcəyin iqtisadiyyatının əsas sahələrindən biridir, çünki yüksək keyfiyyətli tibb və millətin sağlamlığı hər bir ölkənin uğurlu sosial-iqtisadi inkişafının mühüm tərkib hissəsidir».

Belarusun səhiyyə nazirinin müavini bu cür görüşlərin təcrübə və bilik mübadiləsi baxımından çox vacib olduğunu vurğulayıb. Belarusda əczaçılıq sənayesinin sistemli və dinamik şəkildə inkişaf etdiyini deyən Aleksandr Starovoytov təkcə hazır dərman formalarının Azərbaycana ixracının deyil, həm də bu sahənin inkişafına və ölkəmizdə mütəxəssislərin hazırlanmasına kömək göstərilməsinin məqsədəuyğun olduğunu diqqətə çatdırıb. Belarusda ürək cərrahiyyəsi, transplantologiya, hematologiya, immunologiya, uşaq onkologiyası və tibbin digər sahələrində ciddi nailiyyətlərin əldə edildiyini söyləyən nazir müavini Azərbaycan Səhiyyə Nazirliyi, eləcə də onun tabeliyindəki elmi tədqiqat institutları və mərkəzləri ilə əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılmasında maraqlı olduğunu bildirib.

Söhbət zamanı tərəflər əczaçılıq sənayesində gələcək əməkdaşlığın perspektivləri, tibb kadrlarının hazırlanması prosesinin təkmilləşdirilməsi, səhiyyə sistemlərinin rəqəmsallaşdırılmasının tətbiqi üzrə əməkdaşlığın qurulması və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Səhiyyə Nazirliyinin «Çağrı Mərkəzi» müharibə iştirakçıları və şəhid ailələrinin müraciətlərini cavablandırır

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9109 qısa nömrəli «Çağrı Mərkəzi»nə daxil olan müraciətlərin operativ şəkildə həlli məqsədilə aidiyyəti dövlət qurumları ilə inteqrasiya olunan «Müharibə veteranları və şəhid ailələrinə psixoloji yardım və tibbi reabilitasiya üzrə Vahid Nəzarət Platforması» formalaşdırılıb.**






Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, fəaliyyət göstərdiyi müddətdə «Çağrı Mərkəzi» vasitəsilə müharibə iştirakçıları və şəhid ailələrinin 67326 müraciəti cavablandırılıb. Müraciətlərdən 13928-i birbaşa daxil olub, 53 398-ni isə proaktiv zənglər təşkil edib.

Bu günədək Səhiyyə Nazirliyinin ixtisaslaşmış qurumlarına psixoloji yardımla bağlı 2257 müraciət yönləndirilib. Eyni zamanda, psixiatrik müayinəmüalicə ilə bağlı 2291 müraciət daxil olub. Səhiyyə Nazirliyinin reabilitasiya mərkəzlərinə ümumilikdə 1237 müraciət yönləndirilib.

Qeyd edək ki, 9109 «Çağrı Mərkəzi»nə müraciətlər həftənin bütün günləri, günün istənilən vaxtında qəbul olunur. Müharibə veteranlarına göstərilən psixoloji və tibbi reabilitasiya xidmətlərinə vahid platformadan nəzarətin təşkil edilməsi, müharibə veteranları və şəhid ailələri ilə proaktiv işin aparılması, bu işlərin sistemli və davamlı şəkildə təmin edilməsi, sahəvi fəaliyyətlərin digər dövlət qurumları ilə koordinasiyasının aparılması məqsədilə yaradılmış «Çağrı Mərkəzi» ötən il aprelin 1-dən fəaliyyət göstərir.

# Səhiyyə Nazirliyi: Azərbaycanda meymunçiçəyinə şübhəli hallar qeydə alınmayıb

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Afrikada yayılan meymunçiçəyi epidemiyasını bütün dünya üçün təhlükə törədən fövqəladə vəziyyət elan edib. Bildirilir ki, bundan əvvəl 2022-2023-cü illərdə bu xəstəliyin qlobal alovlanması baş vermişdi. Lakin indiki epidemiyanın törədicisi ondan qat-qat daha təhlükəli ştamdır.**



ÜST-nin bəyanatında qeyd olunur ki, yeni epidemiya Konqo Demokratik Respublikasında alovlanma ilə başlayıb. Bu ölkədə həmin infeksiya səbəbindən 450 nəfər insan ölüb. Bundan sonra xəstəlik Mərkəzi və Şərqi Afrikaya yayılıb.

ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus bəyan edib ki, bu ilin birinci yarısı ərzində xəstələnənlərin sayı artıq keçən il bütün il boyu xəstələnənlərin sayını ötüb. Buna görə də o, ÜST-nin Fövqəladə Hallar üzrə Komitəsinin tövsiyəsinə əsasən yeni epidemiyanı «ictimai səhiyyə sahəsində beynəlxalq miqyaslı fövqəladə vəziyyət» elan edib. Gebreyesus deyib ki, bu alovlanmanı dayandırmaq və insanları xilas etmək üçün beynəlxalq birliyin koordinasiya olunmuş cavab tədbirləri tələb olunur.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi bu xəstəliklə bağlı məlumat yayıb.

Bildirilir ki, meymunçiçəyi çox nadir hallarda rast gəlinən zoonoz virus xəstəliyidir, insana əsasən heyvandan keçir. Xəstəliyin inkubasiya dövrü 5-21 gün arasında dəyişə bilər. Adətən 2-4 həftə davam edən xəstəliyin başlanğıc dövründə qeyd edilən kataral əlamətlər (hərarət, şiddətli başağrı, limfa düyünlərinin böyüməsi) sonradan səpgi dövrünə keçir. Eyni inkişaf mərhələsində olmaqla bütün bədəni əhatə edən suluqlu səpgilər bir neçə gün davam edir, sonra eyni vaxtda qartmaq bağlayır və yerində çapıq toxumasının əmələ gəlməsi ilə sağalır.

İnfeksiya insandan insana birbaşa sıx təmas nəticəsində, tamlığı pozulan dəri və selikli qişalar vasitəsilə ötürülür.

Xəstəliyə xas olan kliniki əlamətlər əmələ gəlməyənə qədər xəstə və ya onunla təmasda olan şəxslər yoluxucu hesab edilmir.

Xəstəlik adətən özünü məhdudlaşdıran xüsusiyyətə malikdir, yəni ağırlaşmayan hallar heç bir müalicə olmadan sağalır. Əksər xəstələrdə meymunçiçəyi yüngül formada keçdiyi üçün, simptomatik müalicə kifayət edir.

Səhiyyə Nazirliyinin məlumatında bildirilir ki, Azərbaycan ərazisində bugünədək meymunçiçəyi xəstəliyinə şübhəli hallar qeydə alınmayıb. Bu istiqamətdə Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə əsasən ciddi epidemioloji nəzarət aparılır. Yoluxmaya şübhəli şəxslərin aşkarlanması, diaqnostikası və müalicəsi üçün müvafiq resurslar mövcuddur.

# Sertifikasiya ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında əmr imzalanıb

**Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev «Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında» əmr imzalayıb.**

Sənəddə qeyd olunur ki, 2011-ci ildən Azərbaycan Respublikasında qanunvericiliyə uyğun olaraq praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası tətbiq olunmağa başlayıb.

Bildirilir ki, tibb mütəxəssislərinin sertifikasiyası ilə bağlı həlli tələb olunan və çoxsaylı vətəndaş müraciətlərinə səbəb olan məsələlər mövcuddur. Belə ki, qanunvericiliyin tələbinə baxmayaraq, dövlət və qeyri-dövlət (özəl) tibb müəssisələrində tibb işçilərinin hazırlıq keçdikləri ixtisasa uyğun olmayan həkim və orta tibb heyəti vəzifələrində çalışmaları halları müşahidə olunur və həmin tibb mütəxəssisləri təhsil haqqında sənədlərində qeyd olunan ixtisas üzrə deyil, məhz tutduqları vəzifəyə uyğun digər ixtisas üzrə sertifikasiyadan keçmək üçün Səhiyyə Nazirliyinə müraciət edirlər.

Bölgələrdə kadr çatışmazlığını nəzərə alaraq 2018-ci ilədək Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 23.06.2010-cu il tarixli 57 nömrəli əmrinin 1-ci hissəsinə əsasən tibb mütəxəssislərinin əsas (baza ali) tibb təhsili əsasında müəyyən həkim vəzifələrində işləməsinə icazə verilmişdi. Bununla yanaşı, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu (ADHTİ) tərəfindən 2009-cu ilin mart ayınadək qanunvericiliyə uyğun olaraq ixtisasdəyişmə ilə əlaqədar peşə hazırlığı kursları keçirilmişdi və həmin kurslarda iştirak etmiş həkimlər yiyələndikləri ixtisasa uyğun praktik tibb fəaliyyəti ilə məşğul olurlar.

«Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikası Qanununun 48-ci maddəsinin dördüncü hissəsinə əsasən, tibb mütəxəssislərinin ixtisaslarının dəyişdirilməsinə yalnız müvafiq təhsil müəssisəsində peşə hazırlığı keçdikdən və qanunvericiliyə uyğun olaraq sertifikasiya olunduqdan sonra yol verilir. Qanunvericilikdə tibb mütəxəssislərinin yeni ixtisas əldə etməsinin həkimlər üçün rezidentura, orta tibb işçiləri üçün orta ixtisas tibb təhsili, digər tibb mütəxəssisləri üçün bakalavriat və ya magistratura səviyyəsində təhsil almaq yolu ilə mümkünlüyü nəzərdə tutulduğundan sözügedən maddənin müddəası aktuallığını itirib. Bu baxımdan, «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının Konstitusiya Qanununun 45-ci maddəsinə uyğun olaraq «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunda və digər normativ hüquqi aktlarda dəyişiklik layihələri hazırlanıb və aidiyyəti dövlət orqanları ilə razılaşdırılma mərhələsindədir.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə»nin 14.5-ci yarımbəndini rəhbər tutaraq, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası ilə bağlı bəzi məsələlərin tənzimlənməsi məqsədilə qərara alınıb ki, «Bəzi tibb mütəxəssislərinin sertifikasiyadan keçməli olduqları ixtisasların müəyyən edilməsi Siyahısı» təsdiq edilsin.

Bu siyahı ilə müəyyən olunub ki, ADHTİ-də ixtisasdəyişmə ilə bağlı peşə hazırlığı kursunu keçənlər şəhadətnamə, yaxud ali və ya ali ixtisas tibb təhsili diplomunda qeyd edilmiş ixtisasa uyğun olaraq sertifikasiyadan keçməlidirlər.

Əsas (baza ali) tibb təhsilini müalicə işi (tibb), pediatriya ixtisası üzrə bitirmiş və 19.03.2018-ci il tarixinədək Səhiyyə Nazirliyinin 23.07.2010-cu il tarixli 57 nömrəli əmri ilə təsdiq olunmuş baza ali tibb təhsilinə əsasən tutulmasına icazə verilən vəzifələrin siyahısına uyğun olaraq işə qəbul olunmuş və həmin vəzifədə işləyənlər tutduqları vəzifəyə, yaxud ali və ya ali ixtisas tibb təhsili diplomunda qeyd edilmiş ixtisasa uyğun olaraq sertifikasiyadan keçməlidirlər.

Əsas (baza ali) tibb təhsilini müalicə işi (tibb) ixtisası üzrə bitirmiş və fasiləsiz olaraq 5 ildən artıq müddətdə işləməyən şəxslər ADHTİ-də müvafiq peşə hazırlığı kursu keçdikdən sonra «Tibb» ixtisası üzrə sertifikasiyadan keçməlidirlər.

Əsas (baza ali) tibb təhsilini pediatriya ixtisası üzrə bitirmiş və fasiləsiz olaraq 5 ildən artıq müddətdə işləməyən şəxslər ADHTİ-də müvafiq peşə hazırlığı kursu keçdikdən sonra pediatriya (baza) ixtisası üzrə sertifikasiyadan keçməlidirlər.

Əsas (baza ali) tibb təhsilini stomatologiya ixtisası üzrə bitirmiş, internatura və ya rezidentura təhsili almamış şəxslər sertifikasiyadan stomatologiya (baza) ixtisası üzrə keçməlidirlər.

«Funksional diaqnostika» ixtisası üzrə internatura hazırlığını kardiologiya şöbəsində funksional diaqnostika kabinetlərində (Elektrokardioqrafiya, Exokardioqrafiya) keçənlər «Kardiologiya», şüa diaqnostikası şöbələrində (ultrasəs müayinəsi, rentgen müayinəsi və s.) keçənlər isə «Şüa diaqnostikası» ixtisası üzrə sertifikasiyadan keçməlidirlər.



Əsas (baza ali) tibb təhsilli təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkimlər «Tibb» ixtisası üzrə sertifikasiyadan keçməlidirlər.

Əmrin ikinci bəndi ilə 2 nömrəli Əlavə - «Sertifikasiya imtahan suallarının bəzi tibb işçisi vəzifələrinə uyğunlaşdırılmasına dair Cədvəl» təsdiq edilib.

Bu cədvələ uyğun olaraq, təcili və təxirəsalınmaz tibbi yardım üzrə həkim vəzifəsində çalışanlar təcili və təxirəsalınmaz tibbi yardım üzrə imtahan suallarına əsasən sertifikasiya imtahanı verməlidirlər. Rezidenturada «Neonatologiya» ixtisası üzrə hazırlıq aparılanadək həkim-neonatoloq vəzifəsində çalışan pediatriya ixtisaslı həkim-mütəxəssislər neonatologiya üzrə imtahandan keçirilirlər. İxtisası anesteziologiya və reanimatologiya olub həkim-toksikoloq vəzifəsində çalışan həkim-mütəxəssislər toksikologiya üzrə, həkim-kosmetoloq vəzifəsində çalışan dermatovenerologiya ixtisaslı həkim-mütəxəssislər tibbi (estetik) kosmetologiya üzrə imtahan verirlər. Şüa diaqnostikası ixtisası üzrə sertifikasiyadan keçmək üçün müraciət edən şüa diaqnostikası üzrə həkimlərin imtahan sualları onların çalışdıqları müvafiq sahə (ultrasəs müayinəsi, kompüter tomoqrafiyası və s.) üzrə, ümumi cərrahiyyənin yalnız koloproktologiya, endokrin cərrahiyyə və s. sahələri üzrə çalışan (əməliyyatlar icra edən) həkim-ümumi cərrahların imtahan sualları çalışdıqları müvafiq sahə (koloproktologiya, endokrin cərrahiyyə və s.) üzrə tərtib olunur. Bu zaman həmin müvafiq sahə əmək kitabçasında fəaliyyət sahəsi barədə qeyd və ya çalışdıqları tibb müəssisəsindən təqdim edilən arayış əsasında müəyyən edilməlidir.

Əmrin 3-cü bəndi ilə ona 3 nömrəli Əlavə - «Praktik tibb fəaliyyəti ilə məşğul olmayan tibb və ya əczaçılıq işçilərinin Siyahısı» təsdiq edilib.

Müəyyən olunub ki, həkim-metodist və həkim-statistik həkim vəzifələri, tibbi statistik, çağırış üzrə tibb bacısı və tibb qeydiyyatçısı orta tibb işçisi vəzifələri praktik tibb fəaliyyəti hesab edilməyən vəzifələrdir. Bu vəzifələrdə çalışanların sertifikasiya imtahanından keçməsi tələb olunmur.

Əmrdə İctimai Səhiyyə və İslahatlar Mərkəzinə (İSİM) tapşırılıb ki, tibb mütəxəssislərinin sertifikasiya imtahanlarına buraxılması bu Əmrin 1-ci hissəsi ilə təsdiq edilmiş Siyahı nəzərə alınmaqla həyata keçirilsin. Bu Əmrin 2-ci hissəsi ilə təsdiq olunmuş Cədvəl qeyd olunan ixtisaslar üzrə keçirilən sertifikasiya imtahanının test hissəsində sualların 70 %-nin, klinik tapşırıqlar hissəsində isə bütün sualların tibb işçisinin tutduğu vəzifəyə uyğun olması təmin edilsin. Bu Əmrin 3-cü hissəsi ilə təsdiq olunmuş Siyahıda qeyd olunan tibb mütəxəssisləri sertifikasiyaya cəlb edilməsinlər. Nazirlər Kabinetinin 2010-cu il 29 aprel tarixli 82 nömrəli Qərarı ilə təsdiq edilmiş «Təhsil haqqında sənədlərin nümunələri və onların verilməsi Qaydaları»nda diplomun verilməsi müddətinə dair tələblərə riayət olunmadığı halda sertifikasiya ilə bağlı müraciət zamanı tibb mütəxəssisinə ixtisası üzrə peşə-ixtisas dərəcəsinin verilməsi haqqında Attestasiya Komissiyasının qərarının tarixi əsas hesab edilsin. İSİM-ə həmçinin sertifikasiya imtahan suallarının qanunvericiliyin tələblərinə uyğun olaraq yenilənməsi, habelə sertifikasiya imtahanında iştirak etmiş tibb mütəxəssislərinin həmin sualların tərtibatı ilə bağlı əsaslı müraciətləri nəzərə alınaraq onların aidiyyəti üzrə ekspertizasının keçirilməsi və müvafiq tədbirlərin görülməsi həvalə olunub. Tapşırılıb ki, bu Əmrin 1-ci bəndi ilə təsdiq edilmiş Siyahıda qeyd olunan şəxslər və bu Əmr qüvvəyə minənədək Səhiyyə Nazirliyi tərəfindən təhsil haqqında diplomda qeyd edilmiş ixtisasdan fərqli ixtisas üzrə sertifikasiya imtahanına buraxılmış şəxslər istisna olmaqla, tibb mütəxəssislərinin təhsil haqqında diplomda qeyd edilmiş ixtisasdan fərqli ixtisas üzrə sertifikasiya imtahanına buraxılmasına yol verilməsin. Naxçıvan Muxtar Respublikasında sertifikasiya imtahanlarının təşkili də İSİM-ə həvalə edilib. İctimai Səhiyyə və İslahatlar Mərkəzi sertifikasiya imtahanları ilə bağlı həyata keçirilən fəaliyyət və onun nəticələrini təhlil edərək, hər rübün sonunda Səhiyyə Nazirliyinə hesabat təqdim etməlidir.

Əmrdə dövlət və qeyri-dövlət tibb müəssisələrinin rəhbərlərinə tapşırılıb ki, tibb və ya əczaçılıq işçiləri yalnız hədəf auditoriyası kimi ixtisaslarının və (və ya) çalışdıqları vəzifələrin müəyyən edildiyi təkmilləşdirmə kurslarına göndərilsinlər.

Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna həvalə olunub ki, Səhiyyə Nazirliyinin müvafiq əmrlərinə əsasən 2009-cu ilin mart ayınadək tibb mütəxəssislərinin ixtisasdəyişmə məqsədilə peşə hazırlığı kurslarından keçməsi barədə məlumatları «Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq hüququ olan şəxslərin dövlət reyestri»nə daxil edilmək üçün Səhiyyə Nazirliyinə təqdim etsin. Eləcə də bundan sonra bu Əmrin 4.6-cı bəndinin tələbləri nəzərə alınaraq, tibb mütəxəssislərinin təhsil haqqında diplomda qeyd edilmiş ixtisasdan fərqli ixtisas üzrə təkmilləşdirmə və peşə hazırlığı kursuna qəbul olunmasına yol verilməsin.

*(Davamı 6-cı səhifədə)*

# Rusiyanın səhiyyə naziri Seçenov Universitetinin Bakı filialının fəaliyyəti ilə tanış olub

**Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının Bakı Sağlamlıq Mərkəzində - filialın klinik bazasında yerləşən Tədris - Simulyasiya Mərkəzinin fəaliyyəti ilə tanış olub.**



AZƏRTAC xəbər verir ki, Seçenov Universitetinin Bakı filialının rektoru, tibb elmləri doktoru, Milli Onkologiya Mərkəzinin Baş - boyun cərrahiyyəsi şöbəsinin aparıcı elmi işçisi professor Əziz Əliyev qonağa Təlim - Simulyasiya Mərkəzinin yaradılması tarixi və fəaliyyəti barədə məlumat verib.

Rektor qeyd edib ki, mərkəzdə real şəraitə maksimum səviyyədə yaxın imkanlar yaradılıb. Müasir avadanlıqlar üzrə təhsil alan tələbələr komandada işləmək bacarıqlarına yiyələnir və fövqəladə hallarda qərar qəbul etməyi öyrənirlər. Mərkəzin müəllimləri Rusiya və Azərbaycanın qabaqcıl klinikalarının xüsusi təlim keçmiş praktiki həkimləridir.



Vurğulanıb ki, Rusiya Federasiyası Səhiyyə Nazirliyinin Federal Dövlət Muxtar Ali Təhsil Müəssisəsinin - İ.M Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı Azərbaycan Respublikası Prezidentinin 15 may 2015-ci il tarixli Sərəncamı və Rusiya Federasiyası Səhiyyə Nazirliyinin müvafiq əmri əsasında, bu universitetin məzunu və fəxri professoru olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb.

Universitetdə tədris Seçenov Universitetinin aparıcı professor-müəllim heyəti tərəfindən iki istiqamətdə - «Müalicə işi» ixtisası üzrə (yerlərin sayı 125 nəfər) 6 illik təhsil müddətində və «Sənaye əczaçılığı» magistraturasında (yerlərin sayı 10) təhsil müddəti 2 il olmaqla aparılır. Məzunlara Azərbaycanda avtomatik nostrifikasiya edilən İ.M Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin diplomu verilir.

Professor Əziz Əliyev jurnalistlərə bildirib: «2024-2025-ci tədris ili üçün qəbul kampaniyası zamanı abituriyentlərdən 400-ə yaxın müraciət daxil olub; onlardan 125 yerə 321 ərizə qəbul edilib. Qeyd edək ki, «Müalicə işi» ixtisasına bu qədər müraciət filialın fəaliyyət göstərdiyi 9 ildə ilk dəfədir müşahidə olunur. 2023-2024-cü tədris ilində Bakı filialında «Müalicə işi» ixtisası üzrə 4-cü və «Sənaye əczaçılığı» ixtisası üzrə magistraturaya 3-cü buraxılış mərasimləri keçirilib. Qeyd edək ki, hər il filialın 60-80 tələbəsi Moskvanın Seçenov Universitetinin aparıcı klinikalarında təcrübə keçir».

Mərkəzlə tanışlıq zamanı diqqətə çatdırılıb ki, Seçenov Universitetinin Bakı filialı «R-Pharm» əczaçılıq zavodu ilə sıx əməkdaşlıq edir, onun bazasında filialın magistrləri üçün «Sənaye əczaçılığı» ixtisası üzrə praktiki dərslər keçirilir.

Ə.Əliyev onu da bildirib ki, ən müasir avadanlıqlarla təchiz edilmiş, simulyasiya təlimi metodlarından istifadə etməklə kliniki təfəkkür formalaşdırılan Təlim - Simulyasiya Mərkəzində komandada işləmək qabiliyyəti, tibbi xidmətin mümkün olduğu qədər reallığa yaxın olması standartlarına uyğun olaraq fövqəladə hallarda hərəkət və qərar qəbuletmə bacarıqları inkişaf etdirilir.

Təlim - Simulyasiya Mərkəzində Seçenov Universitetinin Bakı filialı və Azərbaycan Tibb Universitetinin tələbələrinin praktiki bacarıqlarının inkişafı və akkreditasiyası, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun müdavimləri üçün treninqlər, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin xətti ilə təlimlər keçirilir. Eləcə də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələri, Formula 1 Azərbaycan Qran-Prisinin könüllüləri, Azərbaycan Hava Yolları - AZAL şirkətinin əməkdaşları üçün təlimlər təşkil olunur. Həmçinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Əməliyyat Şirkətinin əməkdaşları üçün, eləcə də Şuşa, Laçın şəhərlərində - Qarabağ iqtisadi rayonunda xəsarət alanlara «İlkin tibbi yardım» təlimləri də Mərkəzin layihələrindəndir.

Seçenov Universitetinin Bakı filialı öz tələbələrinin təcrübə keçməsi üçün Azərbaycanın 30-dan çox tibb müəssisəsi ilə əməkdaşlıq edir.

Filialın universiteti təmsil edən tələbələri akademik məruzələrlə çıxış edir, intellektual və yaradıcılıq müsabiqələrinə, olimpiadalara, beynəlxalq gənclər festivallarına qatılır, təhsil və mədəniyyət dəyərlərinə sadiq olduqlarını vurğulayırlar. Onlar həmçinin Bakıda keçiriləcək COP29-da fəal iştirak edəcəklər.

Rusiya Federasiyasının səhiyyə naziri Mixail Muraşko jurnalistlərlə söhbətində qeyd edib ki, Bakı filialında mütəxəssislərin hazırlığı yüksək templə gedir və əla nəticələr nümayiş etdirilir. «Məzunların 30 faizindən çoxu fərqlənmə diplomu alıb. Bu, yüksək təhsil səviyyəsidir və qeyd etmək istəyirəm ki, təhsilin keyfiyyəti Moskvadakı ilə eynidir, hətta bəzi dərslərdə olanda məndə elə bir təəssürat yaranır ki, Moskvadayam. Bütün proses Moskvada - əsas universitetdə olduğu kimi həyata keçirilir», - deyə M.Muraşko əlavə edib.

Rusiyanın səhiyyə naziri qeyd edib ki, bu gün Bakı filialı digər fəaliyyətlərlə yanaşı, Azərbaycan Tibb Universitetinin məzunlarının təlimini və akkreditasiyasını da həyata keçirir. Seçenov Universitetinin Bakı filialında mütəxəssis hazırlığının keyfiyyəti düzgün qurulub. «Tibb işçisi üçün əsas olan «bilirəm, ona görə də bacarıram» prinsipidir. Bu səbəbdən də başlıcası odur ki, mütəxəssis həyatında bir dəfə belə vəziyyətlə qarşılaşsa belə, kömək göstərə biləcək, çünki o, artıq manekenlərdə, bu imkanları real şəkildə həyata keçirməyə imkan verən təlim avadanlıqlarında müalicə üsullarını mənimsəyib», -deyə nazir vurğulayıb.

Sonra Rusiyanın səhiyyə naziri Mixail Muraşko və rektor Əziz Əliyev Seçenov Universiteti Bakı filialının rezidentləri ilə görüşüblər.

Bildirilib ki, Bakı filialında müxtəlif ixtisaslar üzrə rezidenturaya 40 nəfər qəbul edilir. «Hazırda filialın 77 rezidenti müxtəlif ixtisaslar üzrə Azərbaycanda, 8 rezident isə Seçenov Universitetinin Moskva, ABŞ, Almaniya və Türkiyədəki aparıcı klinikalarında təhsil alır. Onlardan dördü bu il rezidenturanı bitirir», - deyə Ə.Əliyev vurğulayıb.

Həmçinin qeyd olunub ki, rezidentlərin hazırlanması üçün kliniki bazalar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilən aparıcı klinikalardır.

Ə.Əliyev vurğulayıb ki, Seçenov Universitetinin kliniki mütəxəssisləri vaxtaşırı rezidentlərin təlim keçdiyi bu bazalara baş çəkirlər. Onlar filial rezidentləri ilə birgə mühazirələr oxuyur, həmçinin xəstələrin konsultasiyasında iştirak edirlər.

# Sertifikasiya ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında əmr imzalanıb

*(Əvvəli səhifə 5-də)*

Əmrə əsasən, Azərbaycan Tibb Universitetinə 2011-ci ilədək bütün illər üzrə internaturada hazırlıq keçmiş şəxslərin siyahısını Reyestrə daxil edilməsi üçün bu ilin sonunadək Səhiyyə Nazirliyinə təqdim etmək tapşırılıb.

Səhiyyə Nazirliyinin İnsan resursları, elm və təhsil şöbəsi isə təqdim edilmiş müvafiq məlumatları Reyestrə daxil etməlidir. Bunun üçün nazirliyin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi Reyestrdə müvafiq texniki imkanların yaradılmasını təmin etməlidir.

Əmrdə Ali və orta ixtisas tibb təhsili müəssisələrinin rəhbərlərinə tapşırılıb ki, pedaqoji heyət üzrə müvafiq tibb və səhiyyə (əczaçılıq) ixtisaslarına uyğun kafedra və ya şöbələrə yalnız ixtisası (ixtisaslaşması) həmin kafedranın profilinə uyğun olan şəxslər işə qəbul olunsun, habelə tələbələr və müdavimlər praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası üzrə mövcud qanunvericiliklə bağlı maarifləndirilsin və bu Əmr barədə məlumatlandırılsın. Tibb təhsilini həyata keçirən digər təhsil müəssisələrinin rəhbərlərinə münasibətdə bu bənd tövsiyə xarakteri daşıyır.

Naxçıvan Muxtar Respublikasının səhiyyə nazirinə Muxtar Respublikada sertifikasiya imtahanlarının qanunvericiliyin tələblərinə uyğun olaraq təşkili üçün müvafiq şərait yaratmaq həvalə olunub.

Səhiyyə Nazirliyinin Media və kommunikasiya şöbəsinə tapşırılıb ki, bu Əmri nazirliyin rəsmi internet saytında və sosial şəbəkə hesablarında yerləşdirsin, habelə tibb ictimaiyyətinin bu Əmrin müddəaları ilə bağlı media vasitəsilə məlumatlandırılmasını təmin etsin.

# Səhiyyə profilli QHT-lərin rəhbər şəxsləri ilə görüş keçirilib



**Ölkəmizdə səhiyyə profili üzrə fəaliyyət göstərən bir qrup QHT-lərin rəhbər şəxsləri ilə görüş keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin təşkilatçılığı altında baş tutan görüşdə Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin Elm, təhsil, mədəniyyət, səhiyyə və gender siyasəti məsələləri sektorunun baş məsləhətçisi Elçin Adıgözəlov, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin İcraçı direktoru Aygün Əliyeva, Səhiyyə Nazirliyinin Aparat rəhbəri Tural Babayev, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) İcraçı direktorunun müavini Araz Nəsirov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) Səhiyyə İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Elnarə Muradova, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Zaur İbrahimli və digər məsul şəxslər iştirak ediblər.

Aparılan ətraflı müzakirələrdə səhiyyə profili üzrə iş aparan QHT-lərdən ictimai gözləntilər, Azərbaycan dövlətinin səhiyyə siyasətinin prioritetlərinə uyğun olaraq QHT-lərin ümumi işə, o cümlədən xəstəliklərin müalicəsinə dair tibbi protokolların təkmilləşdirilməsi prosesinə töhfələrinin artırılması imkanları nəzərdən keçirilib.

İctimai birlik təmsilçiləri Azərbaycan Milli QHT Forumunun təşəbbüsü ilə yaradılan COP29 QHT Koalisiyasının işində də fəal iştirak etdiklərini bildiriblər.

Qarşıdakı dövrdə səhiyyə profili üzrə fəaliyyət göstərən QHT-lərin Forumunun keçirilməsi, bu sahədə ixtisaslaşmış peşə birliklərinin rolunun artırılmasına dair təkliflər səsləndirilib.

Prezident Administrasiyasının, Səhiyyə Nazirliyinin, TƏBİB-in, AHİK-in və digər əlaqədar qurumların nümayəndələri müvafiq qeydlər götürüb, təklifləri dinləyib, sualları cavablandırıblar.

# Paytaxtda Səhiyyə Nazirliyinin adından əsassız şəkildə istifadə halları qeydə alınıb



**Səhiyyə Nazirliyinin təsdiq olunmuş Əsasnaməsinə uyğun olaraq, ölkə üzrə yoluxucu xəstəliklərin profilaktikası sahəsində dezinfeksiya tədbirləri (profilaktik və ocaqlı dezinfeksiya) nazirliyin tabeliyində olan Respublika Gigiyena və Epidemiologiya Mərkəzi, Bakı Şəhər Dezinfeksiya Mərkəzi, rayonşəhər gigiyena və epidemiologiya mərkəzləri, rayonşəhər dezinfeksiya idarələri tərəfindən həyata keçirilir.**

Lakin son zamanlar paytaxtın bir sıra rayonlarında özlərini Səhiyyə Nazirliyinin «Azərbaycan Respublikası Gigiyena və Sanitariya Xidməti İdarəsi»nin əməkdaşları kimi təqdim edən bəzi şəxslər tərəfindən sahibkarlıq subyektlərində yoxlamaların və əsassız dezinfeksiya işlərinin aparılması, sanitar-gigiyena qaydalarının pozulmasına görə cərimə edilməsi təhdidləri kimi neqativ hallara rast gəlinir.

Bu barədə Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzi məlumat yayıb.

Bildirilir ki, Səhiyyə Nazirliyinin tabeliyində «Azərbaycan Respublikası Gigiyena və Sanitariya Xidməti İdarəsi» adlı qurum mövcud deyil və o qurumun təqdim etdiyi blanklarda nazirliyin adından əsassız şəkildə istifadə edilir.

Məlumatda həmçinin qeyd olunur ki, ölkə ərazisində fəaliyyət göstərən sahibkarlıq subyektlərində yoxlamaların aparılması Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilən 2 iyul 2013-cü il tarixli «Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında» Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir. Belə ki, həmin Qanuna əsasən, yoxlamalar yalnız Ədliyyə Nazirliyinin müvafiq icazə sənədi əsasında aparıla bilər.

Respublika GEM-in müraciətində deyilir: "Qeyd olunanları nəzərə alaraq, fərdi sahibkarlar və sahibkarlıq subyektlərinin rəhbərlərinin nəzərinə çatdırırıq ki, yoxlama aparmaq üçün müvafiq icazəsi olmayan və özünü Səhiyyə Nazirliyinin qurumlarının əməkdaşları kimi təqdim edən şəxslər və belə neqativ hallarla rastlaşdıqda nazirliyin 9103, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin (012) 421 13 93 nömrəli qaynar xətlərinə, eləcə də hüquq-mühafizə orqanlarına müraciət etsinlər».

# Analitik Ekspertiza Mərkəzində dərmanların qeydiyyat vəsiqəsi sahibləri ilə görüş keçirilib





**Azərbaycan Respublikası Səhiyyə Nazirliyi «Analitik Ekspertiza Mərkəzi» (AEM) publik hüquqi şəxsinin təşəbbüsü ilə dərman vasitələrinin qeydiyyat vəsiqəsinin sahibləri üçün toplantı təşkil olunub.**

Görüşdə AEM-in Dərman vasitələrinin qeydiyyatı və ekspertizası, Hüquq, Farmakonəzarət, Sənədlərin dövriyyəsinin təşkili, İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbələrinin, «Bir Pəncərə» sektorunun müdirləri və digər məsul şəxslər iştirak ediblər.

Otuzdan çox yerli və xarici şirkət nümayəndələrinin qatıldığı toplantıda bu şirkətlərin nümayəndələri tərəfindən imzalanan 2 avqust 2024-cü il tarixli müraciət məktubunda qeyd olunan məsələlər, həmçinin «Azərbaycan Respublikasında dərman vasitələrinin qeydiyyata alınması məqsədilə sənədlərin təqdim edilməsi qaydalarındakı dəyişikliklər» müzakirə olunub. Görüş vaxtı dərman vasitələrinin qeydiyyatı, yenidən qeydiyyatı və dəyişiklik prosedurları barədə AEM-in nümayəndələri tərəfindən şirkət təmsilçilərinə ətraflı məlumat verilib.

Yekunda yerli və xarici şirkətlərin nümayəndələrini maraqlandıran suallar cavablandırılıb.

# 29 aptekdə yoxlama aparılıb




**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində nəzarət yoxlamaları aparır.**

Mərkəzdən verilən məlumata görə, bu ilin iyul ayı ərzində Bakı şəhəri üzrə 29 aptekdə yoxlama aparılıb, bir aptekdə yoxlamadan kənar təftiş keçirilib.

Aparılan yoxlamalar nəticəsində 5 aptekdə nöqsanlar aşkarlanıb. İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə protokollar tərtib edilib.

# Səhiyyə Nazirliyi Laçında növbəti tibbi müayinələr təşkil edib





**«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Səhiyyə Nazirliyi vətəndaşlar arasında müxtəlif tibbi müayinələrin, eyni zamanda, sağlamlığın təşviqi istiqamətində maarifləndirici aksiyaların keçirilməsini davam etdirir.**





Növbəti belə tədbir Laçın şəhərində baş tutub. Nazirliyin Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun tibb heyəti tərəfindən sakinlərin müayinələri aparılıb.

Tədbirin əsas məqsədi Laçın rayonunda yaşayan vətəndaşların sağlamlıq vəziyyətinin qiymətləndirilməsi və ehtiyac olduqda, müalicə və reabilitasiya tədbirlərinin həyata keçirilməsi, zədələrin, qırıq və çıxıqların diaqnostikası və aşkarlanması, travma və zədələr nəticəsində yaranan problemlərin aradan qaldırılması üçün dərhal tibbi müdaxilə və müalicə tədbirləri görülməsidir. Bundan əlavə, posttravmatik reabilitasiya proqramlarının tətbiqi ilə vətəndaşların funksional imkanlarının bərpa olunması və həyat keyfiyyətinin artırılması, əhalinin travmatoloji zədələrdən qorunması üçün maarifləndirmə tədbirlərinin həyata keçirilməsi və gələcəkdə belə problemlərin qarşısının alınması da məqsəd kimi qarşıda durdurdu.

Aksiya zamanı 150-dən artıq vətəndaş müayinələrdən keçirilib.

Səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub. Onurğa, sinir, dayaq-hərəkət sistemi, bütün növ travmatoloji və ortopedik xəstəliklərin diaqnostikası aparılıb.

Elmi Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun həkim və fizioterapevtləri tədbir iştirakçılarına sağlamlıqlarının tez və effektiv şəkildə bərpasına nail olmaq üçün öz tövsiyələrini veriblər.

Qeyd edək ki, Səhiyyə Nazirliyi işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq maarifləndirici tədbirlərin və müayinə aksiyalarının keçirilməsini nəzərdə tutur.



# Laçında səyyar oftalmoloji müayinələr keçirilib



«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə nazirliyin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar Klinikası tərəfindən Laçın şəhərində əhali üçün oftalmoloji tibbi müayinələr aparılıb.

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, ikigünlük səyyar oftalmoloji müayinələrin başlıca məqsədi operativ şəkildə vətəndaşların müayinəsi, görmə qabiliyyətinin zəifləməsinin qarşısının alınması, görmə patologiyasının erkən diaqnostikası və müalicələrin təyin olunmasıdır.

Tibbi aksiyanın ilk günündə 100-ə yaxın sakin oftalmoloji müayinədən keçib. Müayinələr əsasında vətəndaşlarda quru göz sindromu, allergik konyunktivit, refraksiya patologiyası, miopik astiqmatizm və digər xəstəliklər aşkarlanıb. Eyni zamanda, göz xəstəlikləri ilə bağlı ümumi monitorinqlər aparılıb və əldə edilən nəticələr müzakirə olunub. Ciddi problemlərlə üzləşən və çətin əməliyyat tələb olunan pasiyentlərin Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinə gəlmələrinə şərait yaradılıb.

Ümumilikdə, ikigünlük oftalmoloji aksiya çərçivəsində 200-ə yaxın vətəndaş müayinədən keçib.

Aksiya zamanı qeyd olunub ki, bəzən göz xəstəliklərinin simptomları diqqətdən kənarda qala bilər. İlkin mərhələdə göz patologiyasını müəyyən etmək üçün sakinlərə mütəmadi olaraq ümumi oftalmoloji müayinələrdən keçmələri tövsiyə olunub.

Daha sonra aksiya iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Səhiyyə Nazirliyi işğaldan azad olunan digər ərazilərdə də davamlı olaraq tibbi müayinələrin və maarifləndirici tədbirlərin keçirilməsini nəzərdə tutur.

# Qohum evliliklərinə qadağa qoyulması həyatla uzlaşmayan xəstəliklərin qarşısını ala bilər

**Hamiləlik təbii proses olsa da, bəzən hamiləlikdən öncə qadın orqanizmində olan xəstəliklər və ya hamiləliyin səbəb olduğu problemlər müxtəlif risklər yaradır. Araşdırmalara görə, qadınların qarşılaşdığı sağlamlıq problemlərinin çoxu onların ginekoloji xəstəliklərə etinasızlığı ilə bağlıdır. Azərbaycan Tibb Universitetinin I Mamalıq - ginekologiya kafedrasının dosenti, tibb elmləri doktoru, ginekoloq-endokrinoloq Natəvan Axundova sonsuzluq, qadınların hamiləlik dövründə və ondan əvvəl etdikləri səhvlər, ən çox rast gəlinən ginekoloji xəstəliklərlə bağlı AZƏRTAC-ın suallarını cavablandırıb.**

**– Natəvan xanım, ölkəmizdə qadınların ən çox əziyyət çəkdiyi ginekoloji problemlər hansılardır?**

– Ginekoloji patologiyalar çoxdur. Əvvəla, bilmək lazımdır ki, qadın orqanizmi çox mürəkkəb və həssasdır. Əksər ginekoloji xəstəliklər ilkin mərhələlərdə simptomsuz keçdiyinə görə, qadınlar yalnız ciddi problemlər ortaya çıxdığı zaman həkimə müraciət edirlər.

Ginekoloji xəstəliklər arasında cinsiyyət orqanlarının iltihabi xəstəliklərinə daha çox rast gəlinir və buna xüsusi diqqət yetirmək lazımdır. Çünki iltihabi xəstəliklər sonsuzluğun, menstrual tsiklin və cinsi funksiyanın pozulmasının əsas səbəblərindən hesab edilir.

Cinsi yolla keçən infeksiyalara yoluxanlar da az deyil. Təəssüflə qeyd etmək istərdim ki, bu gün xüsusilə gənclər arasında maarifləndirmə işinin zəif aparılması cinsi yolla yayılan xəstəliklərin sayını artırır.

Hazırda ölkəmizdə ailə qurmağa hazırlaşan cütlüklərin nikahdan əvvəl müayinəsində - cinsi yolla yoluxan bəzi infeksiyalara, eləcə də talassemiyaya görə yoxlanılmasında məqsəd ailənin sağlamlığı, irsi qan xəstəliyindən əziyyət çəkən uşaqların doğulmasının qarşısını almaqdır. Hər bir ailə həm mənəvi, həm də bioloji baxımdan sağlam təməl üzərində qurulmalıdır. İrsi qan xəstəliklərinin daşıyıcıları praktik olaraq tam sağlam insanlar hesab olunurlar. Lakin ailə quran cütlüklərdən hər ikisi daşıyıcı olarsa, bu zaman xəstə uşaqlar dünyaya gələ bilər, yaxud onlar sağlam olsalar da, xəstəlik geninin daşıyıcısı ola bilərlər. Təəssüf ki, qohum evlilikləri də bu xəstəliklərin üzə çıxmasına təkan verir. Bu baxımdan da qohum evliliyinə qoyulan qadağa bir mütəxəssis kimi məni çox sevindirir. Mən bir ginekoloq-endokrinoloq kimi qohum nikahların ağır fəsadlarını yaşayan pasiyentlərlə ünsiyyətdə oluram və deyə bilərəm ki, bu, yalnız tibbi deyil, həm də sosial bəladır. Qohum nikahlarına qoyulan qadağa alqışlanmalıdır. Bu qərar həyatla uzlaşmayan xəstəliklərin azalmasına gətirib çıxarda bilər.

**– Ginekoloq-endokrinoloqa əsasən hansı şikayətlərlə müraciət edirlər?**

– Müraciətlər arasında menstrual tsiklin pozulması, tüklənmə, sonsuzluqla bağlı şikayətlər üstünlük təşkil edir. Həmçinin uğursuz hamiləliklərdən sonra da müraciət edənlər çox olur. Qeyd etmək istərdim ki, sonsuzluğun strukturunda endokrin mənşəli sonsuzluq böyük yer tutur. Bəzən orqanizmdə hansısa hormonun gizli çatışmazlığı, subklinik disfunksiya da sonsuzluq yarada bilər. Söhbət müxtəlif endokrin xəstəliklər fonunda yaranan sonsuzluqdan gedirsə, belə problemlərlə müraciət edən xəstələrin sayı çox olsa da, uğurlu nəticələrimiz də kifayət qədərdir. Xüsusilə vurğulamaq istərdim ki, artıq illərdir apardığımız maarifləndirmə işləri də öz bəhrəsini verib. İnsanlar başa düşüblər ki, cinsi yetişkənlik dövrünün problemli keçməsi qadınların sonrakı reproduktiv fəaliyyətinə təsir göstərir. Cinsi yetişkənlik dövründə ikincili cinsi əlamətlərin formalaşması, final böyümə, gələcək reproduktiv orqanların formalaşması prosesi gedir. Odur ki, bu dövrdə qız uşaqlarının müayinə olunması çox vacibdir.

Pasiyentlərim arasında cinsi inkişafın olmaması, ləngiməsi və ya inkişafın tezləşməsi halları ilə üzləşənlər də var. Bu xəstələr doğru müalicə almadıqda sonradan menstrual tsiklin pozulması, sonsuzluq kimi problemlərlə üz-üzə qalırlar. Unutmayaq ki, sonsuzluq bir xəstəlik deyil, hansısa xəstəliyin nəticəsidir. Çox təəssüf ki, bəzən həkimlərimiz sonsuzluğun kökündə dayanan səbəbləri araşdırmadan, onu ayrıca bir xəstəlik kimi müalicə etməyə çalışırlar.

**– Natəvan xanım, son dövrlərdə qadınların kabusuna çevrilən uşaqlıq boynu xərçəngi riskini kimlər daşıyır?**

– Dünyada uşaqlıq boynu xərçəngi süd vəzisi xərçəngindən sonra qadın cinsiyyət orqanlarının onkoloji xəstəlikləri içərisində ikinci yerdə dayanır. Lakin sevindirici haldır ki, son illərdə aparılan rutin, skrininq müayinələr, PAP-test, HPV genotiplərinin aşkar edilməsi uşaqlıq boynu xərçənginin də vaxtında aşkar olunaraq, qarşısının alınmasına doğru atılmış bir addımdır.



Bu xəstəliklə bağlı yüksək risk qrupuna birdən çox cinsi partnyoru olan, siqaret çəkən, spirtli içki qəbul edən, erkən yaşda cinsi əlaqəyə girən, cinsi yolla yoluxan infeksiyalara, xüsusilə İPV (insan papilloması virusu, papillomavirus, HPV) virusuna yoluxmuş, irsiyyətində cinsi orqanlarının xərçəng xəstəlikləri olan və sair qadınlar daxildirlər. Yeni protokola əsasən, 30 yaşa qədər olan qadınların hər üç ildən bir PAP-test müayinəsindən keçməsi tövsiyə olunur. 30 yaşdan 65 yaşa qədər olan qadınlar isə hər beş ildən bir paralel olaraq PAP-test və insan papilloması virusu (HPV) skrininqlərindən keçməlidirlər. Həm klassik analiz, həm də maye sitologiya bərabər diaqnostik effektivliyə malikdir. Bu üsulların hər ikisi praktikada geniş istifadə edilir. PAP-test bizi tamamilə xərçəngdən sığortalayırmı? 60% halda - bəli. Lakin virus bəzən dərin qatları zədələdiyinə görə PAP yaxmalarda çıxmaya bilər. Kolposkopiya isə xüsusi göstərişlər əsasında aparılır. Müalicədə alqoritmə riayət etmək müalicənin effektivliyini artırır. Bu mərhələdə səhvə yol verməmək olmaz. Bu ardıcıllıq bizə düzgün diaqnoz qoymağa, doğru müayinə və müalicə aparmağa kömək edir.

**– Qız uşaqlarının cinsi yetişkənlik dövründə analar nələrə diqqət yetirməlidirlər?**

– Qız uşaqları mütləq qaydada vaxtında müayinə olunmalıdırlar. Qeyd etdiyimiz kimi, cinsi yetişkənlik dövründə olan qız uşaqlarında yaranan problemlər gələcəkdə ciddi ginekoloji patologiyalara yol aça bilər. Əgər bu gün ana bu problemləri görüb zamanında mütəxəssisə müraciət edirsə, bu qəbahətli hal deyil, əksinə, ananın övladına olan məhəbbətinin, onun sağlamlığına olan hörmətinin göstəricisidir. Çünki cinsi yetişkənlik dövründə olan həmin qız uşağının sabah ana olub-olmayacağı ananın bugünkü addımından asılıdır.

Çox yaxşı olar ki, qızlarımız hamiləlik öncəsi hazırlıq proqramından da keçsinlər. Bu, hamiləlik müddətində mənfi təsirə səbəb olan xəstəliklərin istisna olunması üçün vacibdir. Bu proqramlarda məlumat verilir ki, qadın hamiləlikdən əvvəl hansı laborator analizləri verməlidir, hansı müayinələrdən keçməlidir, hansı vitaminləri qəbul etməlidir. Əgər problemlər zamanında aşkarlanmırsa, gələcəkdə xəstə uşaq dünyaya gətirmək riski də yüksək olur.

Təəssüf ki, bu gün xarici cinsiyyət orqanlarının qüsurları ilə - yalançı kişi və qadın hermafroditizmi formaları ilə doğulan uşaqlar da var. Bu zaman valideynlər zamanında mütəxəssisə müraciət etmir, uşaq cinsi yetişkənlik dövrünə çatdıqda isə çıxılmaz vəziyyətdə qalırlar. Bu patologiyaları hansısa doğuş aparan həkim və ya terapevt aşkarlaya bilməz. Bu zaman yalnız mütəxəssisdən məsləhət almaq lazımdır. Burada məsuliyyət valideynlərin və xəstəni düzgün istiqamətləndirməyən həkimin üzərinə düşür.

**– Ekstrakorporal mayalanma xəstə uşaq dünyaya gətirmək riskini aradan qaldırırmı?**

– Əksər insanlar düşünürlər ki, ekstrakorporal mayalanma yolu ilə mütləq sağlam uşaq dünyaya gəlməlidir. Bu yaxınlarda bizə boru-peritoneal faktorlu və şiddətli astenozoospermiya səbəbindən 8 il sonsuzluqdan əziyyət çəkən ailə müraciət etdi. Lazımi müayinələrdən keçdikdən sonra ailəni ekstrakorporal mayalanmaya göndərdik. Hamiləliyin 12-ci həftəsində ikili test zamanı göstəricilərdə şübhəli dəyişiklik olduğu üçün xəstə kariotip müayinəyə yönləndirildi və Daun sindromlu uşaq dünyaya gətirmə ehtimalı olduğu aşkarlandı. Valideynlərin hər ikisinin də xromosomu normal olsa da, patologiya aşkarlandı. Bu, bir təsadüf ola bilər. Yəni ekstrakorporal mayalanma bu riski aradan qaldırmadı. Aparılan tədqiqatlar da təsdiq edir ki, istər ekstrakorporal mayalanma zamanı, istərsə də təbii yolla hamilə qaldıqda xəstə uşaq dünyaya gətirmək tezliyi eynidir. Baxırıq ki, atada, anada patologiyalar var və növbəti hamiləliklərdə də qüsurlu uşaqlar doğula bilər, bu zaman ekstrakorporal mayalanmaya üz tuturuq.

Bəs ekstrakorporal mayalanma bizə hansı üstünlük qazandırır? Xromosom patologiyalı embrionlar kənarlaşdırılır və yalnız sağlam embrionlar toplanılır, PGD aparılır. Gen patologiyalarında, rezus konfliktin, hətta molekulyar səviyyədə olan xəstəliklərin aşkarlanmasında isə NGS tətbiq olunur. Lakin sağlam embrionları seçdikdə də, onların tutacağı ehtimal yalnız 35-40%-dir. Orqanizmin özünün reaktivliyindən çox şey asılıdır.

**– Sonda oxucularımıza nə demək istərdiniz?**

– Əvvəla, hər birinə cansağlığı arzu edirəm. İstər həkim seçimində, istərsə də müayinələrə müraciətdə heç vaxt yanlışlıqlara yol verməsinlər. Hər zaman düzgün mövqe tutsunlar. Profilaktik məqsədlə müayinələrə getmək heç də qəbahət deyil. Bu, sağlamlığımızın əsasını təşkil edir.

# Reproduktiv sağlamlıq sağlam cəmiyyətin əsasına verilən töhfədir



**Səhiyyə Nazirliyi Ailə Planlanması Məsləhətxanasının mama-ginekoloqu Kəmalə Rüstəmova-Talışınskaya nazirliyin mətbuat xidmətinə müsahibə verib.**

**— Kəmalə xanım, öncə bilmək istərdik ki, reproduktiv sağlamlıq dedikdə nə nəzərdə tutulur?**

— Reproduktiv sağlamlıq insanın reproduktiv sistemi, cinsi sağlamlığı və ümumi rifahı ilə bağlı mövzuların geniş spektrini əhatə edən səhiyyə sahəsidir. Buraya təkcə orqanizmdə baş verən fiziki dəyişikliklər deyil, fərdlərin sosial və emosional halları da aiddir.

Reproduktiv sağlamlıq anlayışı altında insanlara öz cinsi və reproduktiv həyatları haqqında seçimlər etməyə imkan verən məlumat və xidmətlər toplanıb. Bu xidmətlərə ailə planlanması, hamiləlik və doğuş, sonsuzluq, kontrasepsiya üsulları, menstruasiya, yetkinlik dövrü, cinsi yolla keçən infeksiyalar və s. aiddir. Reproduktiv sağlamlıq təkcə fərdlərin sağlamlıq imkanlarına əlçatanlığı deyil, bununla yanaşı, eyni zamanda, sağlam ailənin planlaşdırılması və yaradılması ilə həm də sağlam cəmiyyətin əsasının qoyulmasına verilən töhfədir.

**— Reproduktiv sağlamlığın sütunlarından biri olan ailə planlanması xidmətlərinə nə aiddir?**

— Ailə planlanması xidmətləri fərdlərə və cütlüklərə ailələrini öz istək və şəraitlərinə uyğun planlaşdırmaqla bağlı tövsiyələr verir. Buraya ailədəki uşaqların sayı, hamiləliklər arası intervalın müəyyənləşməsi barədə öncədən qərar qəbulu, istifadə edilən kontrasepsiya üsulları, gözlənilməz hamiləliklərdən qorunma, gender bərabərliyi və s. daxildir.

**— Reproduktiv sağlamlıqda cinsi tərbiyə və maarifləndirmə nə üçün vacibdir?**

— Reproduktiv anatomiya, kontrasepsiya və cinsi yolla keçən infeksiyalar barədə məlumatlılıq cütlüklər arasında sağlam münasibətləri, cəmiyyət daxili açıqlıq, ünsiyyət və qarşılıqlı hörmət mədəniyyətini inkişaf etdirir.

Məlumatlılıq və maarifləndirmə həm də cinsi yolla yoluxan infeksiyaların profilaktikası baxımından vacibdir. Cinsi yolla keçən xəstəliklər bir fərddən digərinə bakteriya, virus və ya parazitlər vasitəsilə ötürülür. Ən geniş yayılan növlərinə İİVQİÇS, insanın papiloma virusu, genital herpes və digərləri aiddir. Bu tipli infeksiyaların erkən aşkarlanması və müalicəsinin təşviq edilməsi uzunmüddətli sağlamlıq fəsadlarının qarşısını almağa və digər fərdə keçməsinə mane olur, gələcəkdə sağlam hamiləlik dövrünün baş tutmasına yol açır.

**— Reproduktiv orqanlarda inkişaf edən xəstəliklərin ümumi səciyyəvi cəhəti nədir?**

— Belə xəstəliklər və anomaliyalar reproduktiv orqanlara və proseslərə təsir edən müxtəlif şərtləri əhatə edir. Onlara sonsuzluq, qeyri-müntəzəm menstruasiya, cinsi disfunksiya və s. aiddir. Reproduktiv anomaliyalar hormonal balansın pozulması, iltihab, reproduktiv orqanlardakı struktur anormallıqları, genetik meyillər və ya ətraf mühit faktorları kimi səbəblərdən yaranır. Bundan əlavə, pəhriz, məşq, stres səviyyələri və toksinlərə məruz qalma kimi müəyyən həyat tərzi faktorları reproduktiv pozuntuların inkişafına təsir göstərə bilər. Ən çox rast gəlinən reproduktiv sistem xəstəliklərinə polikistoz, endometrioz və s. aiddir.

**— Müasir tibbdə sonsuzluq əleyhinə hansı müalicə metodlarından istifadə edilir?**

— Qadın sonsuzluğu qadın reproduktiv sistemindəki problemlərdən, o cümlədən ovulyasiya anomaliyaları, uşaqlıq borusunun tıxanıqlığı, endometrioz və yumurta keyfiyyətinin yaşla bağlı olaraq azalmasından qaynaqlanır. Kişi sonsuzluğu isə sperma istehsalı, keyfiyyəti və ya çatdırılması ilə bağlı problemlərdən, o cümlədən sperma sayının az olması və ya zəif hərəkətliliyi, anormal sperma morfologiyası və reproduktiv sistemin tıxanması nəticəsində yaranır. Hər iki vəziyyət cütlükdə qadının hamilə qalma qabiliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərə və hərtərəfli qiymətləndirmə və müalicə tələb edə bilər.

Müasir tibbdə cütlüklərə (fərdlərə) sonsuzluq problemlərinin öhdəsindən gəlməyə kömək etmək üçün bir neçə müalicə üsulu mövcuddur. Müalicə üsulunun seçimi sonsuzluğun əsas səbəbindən, müalicəni qəbul edəcək şəxslərin yaşından və digər amillərdən asılı olaraq dəyişir.

Qeyd edək ki, dərman və digər tibbi prosedurlardan öncə həyat tərzi dəyişiklikləri (sağlam çəki, siqareti tərgitmək, spirtli içki qəbulunun tənzimlənməsi və stresin idarə edilməsi) tövsiyə olunur. Müalicənin seçimi hər bir fərdin xüsusi vəziyyətinə uyğunlaşdırılmalıdır. Ən uyğun yanaşmanı müəyyən etmək üçün sahəvi tibb mütəxəssisi ilə məsləhətləşmə çox vacibdir. Bu hissədə verilən yanlış qərar və müdaxilə cütlüklərin reproduktiv sistemlərinə mənfi təsir edə bilər.

Sonsuzluğun reproduktiv aspektindən başqa, onun fərdlərə emosional təsirini də vurğulamalıyıq. Bu dövrdə emosional sıxıntıdan əziyyət çəkən cütlüklər müxtəlif üsullarla depressiv vəziyyətlərdən qurtula və ümumi rifahı yaxşılaşdıra bilərlər. Təcrübəli psixoloqla məsləhətləşmə və ya terapiya seansları, meditasiya üsullarını tətbiq etmək bu yolda sınanan uğurlu vasitələrdəndir.

**— Son dövrlərdə yeniyetmələrin reproduktiv sağlamlığı mövzusu aktuallaşıb. Yetkinlik dövrü necə xarakterizə edilir?**

— Yetkinlik dövrü inkişafın fiziki, emosional və hormonal dəyişikliklərlə səciyyələnən transformativ mərhələsidir. Hər iki cinsin nümayəndəsi üçün 10-19 yaş aralığını əhatə edir. Bu yaş arası qızlar üçün süd vəzilərinin böyüməsi, menstruasiya tsiklinin başlanması, oğlanlarda isə səs tellərində dəyişiklik və bədənin müxtəlif nahiyələrində tüklərin artması kimi səciyyələnir. Bu dövrdə hormonal dalğalanmalar əhval-ruhiyyə dəyişikliyinə və emosiyaların artmasına səbəb ola bilər. Yeniyetmələrə bu dövrdə baş verənlərin uyğun izah edilməsi, onların ilkin reproduktiv müayinələrdən keçirilməsi onlara bu dövrü inamla keçməyə kömək edə bilər.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### «Elmi-Tədqiqat Ağciyər Xəstəlikləri İnstitutu» PHŞ

**Ftizioterapiya üzrə elmi şöbə:**
Şöbə müdiri (ftiziatriya), t.ü.f.d. - 1.0 (müsabiqə)
**Ftiziocərrahiyyə üzrə elmi şöbə:**
Şöbə müdiri (ümumi cərrahiyyə), t.ü.f.d. - 1.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 1.0 (müsabiqə)
**Pulmonologiya üzrə elmi şöbə:**
Aparıcı elmi işçi (pulmonologiya, terapiya), t.ü.f.d. - 2.0 (müsabiqə)
**Döş qəfəsi cərrahiyyəsi üzrə elmi şöbə:**
Aparıcı elmi işçi (ümumi cərrahiyyə), t.ü.f.d. - 2.0 (müsabiqə)
Elmi işçi (ümumi cərrahiyyə) - 2.0 (müsabiqə)
**Elmlaboratoriya:**
Elmi işçi - 2.0 (müsabiqə)
Tibb bacısı (qardaşı) - 10.0
Anestezist - 1.0
Feldşer-laborant - 2.0
Rentgen-texnik - 2.0
Tibbi-statistik - 1.0

***Ünvan: E.Süleyman küç., 2514***
***Telefon: 421-50-91***

### «Respublika Psixiatriya Xəstəxanası» PHŞ

Tibb bacısı (qardaşı) - 10.0
Tibbi-ststistik - 1.0
Sosioloq - 2.0
Labarant - 2.0

***Ünvan: Ş.Hüseyn küç., 69/71***
***Telefon: 455-10-91***

### Şamaxı Rayon GEM

Tibbi-statistik - 1.0

***Ünvan: M.Qədirli küç., 61***
***Telefon: (02026) 5-26-45***

### Balakən Rayon GEM

Həkim-parazitoloqun köməkçisi - 1.0

***Ünvan: R.Səmədov küç., 27***
***Telefon: (02429) 5-18-26***

### «Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu» PHŞ

Böyük tibb bacısı (qardaşı) - 1.0 (Köməkçi reproduktiv sağlamlıq texnologiyaları ş.)
Laborant - 1.0 (laboratoriya ş.)
Tibb bacısı (qardaşı) - 1.0 (Anesteziologiya-reanimasiya və intensiv terapiya ş.)

***Ünvan: K.Kazımzadə küç., 118***
***Telefon: 510-61-19***

### QubaTibb Kolleci

Epidemiologiyafənni üzrə müəllim - 1.0
Mikrobiologiya fənni üzrə müəllim - 1.0
Cərrahi xəstəliklərfənni üzrə müəllim - 1.0
Uşaq xəstəlikləri fənni üzrə müəllim - 1.0
Mamalıq və ginekologiya fənni üzrə müəllim - 1.0

***Ünvan: Fətəli Xan küç., 10***
***Telefon: (02333) 5-11-48***

### Nərimanov Rayon Gigiyena və Epidemiologiya Mərkəzi

Feldşer-laborant - 1.0

***Ünvan: A.Heydərov küç., 26 «A»***
***Telefon: 567-20-34***

### Lənkəran Şəhər Psixiatriya Xəstəxanası

Tibb bacısı (qardaşı) - 2.0

***Ünvan: Nəsimi küç., 92***
***Telefon: (02525) 4-44-79***

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi
*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@health.gov.az
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.
İndeks: 1065 Tiraj: 19000

# Səhiyyə Nazirliyi uşaqların immunizasiyası üzrə yeni təlimat buraxıb

Azərbaycan Respublikası səhiyyə nazirinin müvafiq əmrinə əsasən, Səhiyyə Nazirliyi tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) və BMT-nin Uşaq Fondunun (UNICEF) dəstəyi ilə yeni hazırlanan "Uşaqların immunizasiyası üzrə təlimat" təsdiqlənib.

Təlimatda peyvəndlər haqqında ümumi məlumat verilib, Azərbaycan Respublikasında profilaktik peyvəndlər təqvimi, peyvəndlərin tətbiqinə dair tövsiyələr, peyvəndləməyə əks-göstərişlər geniş şərh olunub. Peyvəndlərin yeridilmə qaydalarına, immunizasiyadan sonra baş verən əlavə təsirlərə, peyvəndlərin effektiv idarə olunmasına ayrıca bölmələr həsr edilib.

Bu Təlimat ölkədə həyata keçirilən İmmunizasiya Proqramının əhəmiyyətli şəkildə genişləndirilməsinə təkan verəcək. Təlimatda ilk dəfə olaraq gecikmiş peyvənd cədvəli haqqında müasir məlumatlar verilir. O, həmçinin peyvəndin saxlanması və daşınması, peyvənddən sonra baş verə biləcək əlavə təsirlər, peyvəndin tətbiqi üsulları daxil olmaqla keyfiyyətli immunizasiya xidmətlərini təmin etmək üçün ilkin səhiyyə xidməti səviyyəsində tələb olunan bütün məlumatları özündə ehtiva edir.

Təlimatda ölkədə tətbiq olunan profilaktik peyvəndlər təqvimində əksini tapmayan vaksinlər haqqında da qısa məlumat verilir. Bu da Azərbaycanda vaksinasiya səylərinin əhatə dairəsinin genişləndirilməsinə önəm verildiyini nümayiş etdirir.

Təlimatdakı müasir yanaşmaların təcrübəyə inteqrasiya olunması vaksinlər və immunizasiya xidmətləri ilə bağlı yanlış fikirlərin aradan qaldırılmasına kömək edəcək. Bununla da immunizasiya ilə əhatə səviyyəsinin yüksəlməsinə, həmçinin immunizasiyada bərabərlik məsələlərinin həllinə müsbət təsir göstərəcək.

Yeni təlimat vaksinlə qarşısı alına bilən xəstəliklərdən qorunmaq məqsədilə davam etdirilən səylərdə mühüm addımdır. Bu vəsait tibb işçilərinə əsaslandırılmış qərar qəbul etmək və uşaq əhalisini mümkün olan ən keyfiyyətli immunizasiya xidmətləri ilə təmin etmək imkanı yaradacaq.

Azərbaycanda immunizasiya xidməti göstərən tibb işçiləri üçün yeni vəsait gündəlik təcrübədə əsas istinad mənbəyi kimi istifadə olunaraq immunizasiya xidmətlərinin təhlükəsizlik və səmərəlilik standartlarına uyğun aparılmasını təmin edəcək.

Təlimatın müəllifləri və işçi qrupun üzvləri Azərbaycan Tibb Universitetinin II Uşaq xəstəlikləri kafedrasının professoru, İmmunlaşdırma üzrə Milli Texniki Məsləhətçi Ekspertlər Komissiyasının sədri Hüseyn Qabulov, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai səhiyyə və xəstəliklərə nəzarət şöbəsinin müdiri Nəzifə Mürsəlova, Səhiyyə Nazirliyi Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Afaq Əliyeva, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Pediatriya kafedrasının assistenti, Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, Azərbaycan Pediatriya Cəmiyyətinin sədri, İmmunlaşdırma üzrə Milli Texniki Məsləhətçi Ekspertlər Komissiyasının üzvü Erkin Rəhimov, Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin İmmunoprofilaktika bölməsinin həkim-epidemioloqu Əlcəfər Cəfərov, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin Tibbi keyfiyyət standartları şöbəsinin müdiri Şəhla İsmayılova, TƏBİB-in Tibbi xidmətlərin təşkili departamentinin İlkin səhiyyə xidmətləri şöbəsinin aparıcı məsləhətçisi Aygün Xəlilova, ÜST-nin Azərbaycan nümayəndəliyinin beynəlxalq məsləhətçisi Kevser Vatansever, ÜST-nin Azərbaycan nümayəndəliyinin Peyvəndlə idarə olunan xəstəliklər və infeksion xəstəliklər bölməsinin rəhbəri Sevinc Həsənova, UNICEF-in Azərbaycan nümayəndəliyinin Səhiyyə və Qidalanma proqramının rəhbəri Töhfə Cəmilova, UNICEF-in Azərbaycan nümayəndəliyinin səhiyyə üzrə mütəxəssisi Vəfa Ağayevadır.




# Ümumdünya Ana Südü ilə Qidalanma Həftəsi keçirilib

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə avqustun 1-dən 7-dək Ümumdünya Ana Südü ilə Qidalanma Həftəsi keçirilib.**




Hər il avqust ayının ilk həftəsində qeyd olunan bu həftənin təsis edilməsi 1990-cı ildə ÜST və BMT-nin Uşaq Fondu (UNICEF) tərəfindən ana südü ilə qidalanmanın qorunması, təşviqi və dəstəklənməsinə yönəlmiş bəyannamənin qəbul olunması ilə əlaqədardır. Bu qurumlarla yanaşı, müxtəlif ölkələrdə səhiyyə nazirlikləri, digər səhiyyə təsisatları, eləcə də onların vətəndaş cəmiyyətindən olan partnyorları bu tədbirləri dəstəkləyir.

Ümumdünya Ana Südü Həftəsinin qeyd edilməsində məqsəd qadınları ana südü ilə qidalandırmanın sağlamlıq faydaları haqqında məlumatlandırmaqdır. 2024-cü ildə bu kampaniya «Boşluqları doldurmaqla ana südü ilə qidalanmanı ümumi dəstəklə təmin etmək» şüarı altında keçirilib.

Tədbirin koordinatoru olan Qlobal Ana südü ilə Qidalanma Alyansının fikrincə, ana südü ilə qidalandırma yeni doğulmuş körpələri ehtiyac duyduqları qidalarla təmin etməyin ən yaxşı yoludur.

ÜST körpələrin altı ay müddətində yalnız ana südü ilə qidalanmasını, həmin müddətdən sonra isə onu lazımi qidalarla birlikdə davam etməyi tövsiyə edir. Bununla yanaşı, mütəxəssislər körpənin dünyaya gəldiyi ilk saat ərzində ana südü ilə qidalanmasına başlamağın vacibliyini də qeyd edirlər.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, UNICEF və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən hər il bu tarix ölkəmizdə müxtəlif tədbirlərlə qeyd olunur. Bu tarixin keçirilməsində məqsəd körpələrin ana südü ilə qidalandırılmasını təbliğ və təşviq etmək, ana südü ilə qidalandırmanın körpələrin və anaların sağlamlığı üçün əhəmiyyəti barədə geniş maarifləndirmə aparmaqdır.

Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən bu istiqamətdə müntəzəm olaraq maarifləndirmə tədbirləri həyata keçirilir, məlumatlandırıcı materiallar hazırlanaraq nəşr edilir və əhaliyə paylanılır.

# ÜST nümayəndələri əlillərə göstərilən xidməti yüksək qiymətləndiriblər

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) nümayəndələri Aadrian Sullivan və Turana Əliyeva ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyində görüş keçirilib.**

Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, görüş Köməkçi Texnologiya üzrə Qlobal Tərəfdaşlıq və ÜST Avropa Regional Bürosu tərəfindən «Səhiyyə və sosial müdafiə sistemlərində köməkçi məhsullara çıxışın genişləndirilməsi» layihəsi ilə bağlı ölkəmizdə həyata keçirilən texnologiya üzrə bazar təhlili missiyası çərçivəsində təşkil edilib.

Agentliyin Səyyar və yarımstasionar sosial xidmətlərin təşkili departamentinin müdiri Tünzalə Verdiyeva və Stasionar sosial xidmətlərin təşkili departamentinin keyfiyyətə nəzarət şöbəsinin müdiri Sevinc Əmirova qonaqlara əlilliyi olan şəxslərə göstərilən sosial xidmətlər barədə məlumat veriblər.

Qeyd edilib ki, Agentlik həssas əhali qruplarından olan və xüsusi qayğıya ehtiyacı olan hər kəsi müxtəlif sosial xidmətlərlə təmin edir və həmin xidmətlər səyyar, stasionar və yarımstasionar formada həyata keçirilir.

ÜST-nin regional ofisinin bazar təhlili üzrə məsləhətçisi Aadrian Sullivan bildirib ki, layihənin məqsədi Azərbaycanda köməkçi texnologiya sektorunu gücləndirmək üçün əsas məhsul və xidmətlərə davamlı çıxışı təmin etmək, həmin sahədə əlverişli bazar şəraitini inkişaf etdirmək və strateji tərəfdaşlıqlar qurmaqdır.

ÜST-nin nümayəndələri Agentlik tərəfindən əlilliyi olan şəxslərə göstərilən xidmətləri yüksək qiymətləndiriblər.


SUN
D3
PLATINUM
50 000 BV (1 damcı - 200 BV)
D VITAMIN
E VITAMIN
Antioksidant
Kalsium və fosfor mübadiləsini tənzimləyir
Uşaqlarda sümüklərin normal böyüməsini və inkişafını təmin edir
Diş və əzələlərin sağlamlığını dəstəkləyir
İmmuniteti möhkəmləndirir
Vitamin C və digər antioksidantlarla zəngindir
İltihabələyhinə və hüceyrə qoruyucu xüsusiyyətləri var
İtburnu ekstraktı
YÜKSƏK KEYFİYYƏT
QAYĞIKEŞ TƏBİƏT
HB Co LTD
lotos pharma


ALBA
Albendazole 10 ml/200 mg
Parazitləri həyatınızdan qovun!
Geniş antiparazitar təsir
Pəhrizsiz,imaləsiz terapiya
Unikal pediatrik buraxılış forması
HB Co LTD
BİT Biofarma


AVROMED
Mocom M10
Stomatoloji qurğu
Mocom
firması istehsalı olan
müxtəlif konfiqurasiyalı
stomatoloji qurğular
Mocom Firması avadanlıqlarının
Respublikamızda yeganə
distribütoru Avromed Dentaldır
@avromed_company
@avromedcompany
avromed.az
info@avromed.az